# SAMUX: AQRAR İSLAHATLAR UĞURLA HƏYATA KEÇİRİLİR






**Nazirlər Kabinetinin 2016-cı ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında geniş və əhatəli çıxış edən dövlət başçısı sosial-iqtisadi inkişafın yekunlarını təhlil etmiş, qarşıda duran vəzifələrin icrası ilə bağlı müvafiq tapşırıq və tövsiyələrini vermişdir. Samux Rayon İcra Hakimiyyətində iclas keçirilmişdir. Yığıncağı giriş sözü ilə açan Samux Rayon İcra Hakimiyyətinin başçısı Alı Qocayev Azərbaycanda gedən davamlı inkişafdan və nəhəng layihələrin uğurla icrasından danışdı.**

Daha sonra qeyd etdi ki, 2016-cı ilin doqquz ayında Samux rayonunda da bütün sahələrdə yaxşı nəticələr əldə edilmiş, tikinti-quruculuq işləri davam etdirilmişdir. Doqquz ayın yekunu ilə bağlı görülmüş işlərin təhlili və proqnozlar göstərir ki, rayon iqtisadiyyatının inkişafındakı artım dinamikası davam etmişdir. Belə ki, sənaye 0,4 faiz, kənd təsərrüfatı məhsullarının həcmi 1,4 faiz, pərakəndə əmtəə dövriyyəsi 14,4 faiz və əsas kapitala yönəldilən investisiyaların məbləği 13,7 faiz, o cümlədən tikinti-quraşdırma işlərinin həcmi 8,7 faiz artmışdır. Eyni zamanda rayonda tikinti-quruculuq və abadlıq işləri sahəsində işlər uğurla aparılmışdır. Rayonda da əhalinin məşğulluğu sahəsində yaranmış problemin aradan qaldırılması məqsədi ilə ölkə başçısının tapşırığı əsasında yeni iş yerlərinin yaradılması və ictimai işlərin təşkili istiqamətində tədbirlər həyata keçirilmişdir. Belə ki, 9 ay ərzində 1046-sı daimi olmaqla 1590 yeni iş yeri yaradılmışdır.

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın yerinə yetirilməsi istiqamətində rayonda müəyyən işlər görülmüşdür. Belə ki, hesabat dövründə rayonun Qarabağlar və Lək kəndlərində əhalinin içməli və məişət istifadəsi üçün su təchizatının yaxşılaşdırılması məqsədilə su xətləri çəkilmiş, bulaqlar inşa edilmişdir.

2016-cı ilin 9 ayı ərzində bütün istiqamətlərdə yolların çiyin hissələri avtoqreyderlə plana salınmış, torpaq yatağı mailliklər kol-kosdan təmizlənmişdir.

Rayon iqtisadiyyatının inkişafında da mühüm rol oynayan sahibkarlığın inkişafına rayonda xüsusi diqqət verilir və təsadüfi deyildir ki, 9 ay ərzində 793 yeni sahibkarlıq subyekti fəaliyyətə başlamışdır ki, onlardan da 34 hüquqi şəxsdir. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin ölkədə kənd təsərrüfatının inkişaf etdirilməsi, ərzaq təhlükəsizliyinin aradan qaldırılması məqsədilə verdiyi müvafiq tapşırığa əsasən rayon ərazisində iri taxılçılıq təsərrüfatının yaradılması məqsədi ilə "AQRO DAİRY" Məhdud Məsuliyyətli Cəmiyyət üçün 5000 ha münbit torpaq ayrılmışdır. Cəmiyyət tərəfindən təsərrüfatda çalışacaq maşın-mexanizmlər gətirilmişdir. Həmin sahənin suvarılma sisteminin qurulması "Abkon" MMC şirkəti tərəfindən icra edilir. 13 km əsas su xətti çəkilmişdir. Kompleksin idarə edilməsində istifadə olunacaq yardımçı binaların tikintisi davam etdirilir. Həmin ərazidə 3000 hektar qarğıdalı əkilməsi həyata keçirilmişdir. Bu isə öz növbəsində yüzlərlə yeni iş yerinin yaradılmasına imkan verir. Ölkə Prezidenti cənab İlham Əliyevin pambıqçılığın, tütünçülüyün və baramaçılığın inkişafına dair tapşırıqları ilə əlaqədar icra hakimiyyətində geniş təhlil olunmuşdur. Tövsiyələrə uyğun olaraq cari ildə rayonun Qırmızı Samux qəsəbəsi ərazisində 300 hektar sahədə "Qarabağ region" MKT MMC tərəfindən pambıq səpini aparılmışdır. Həmin sahələrin becərilməsinə 200 nəfərdən artıq yerli sakin mövsümü işçilərə cəlb edilmişdir. 01.10.2016-cı il tarixə kimi sahələrdən 80 ton ağ qızıl toplanmışdır. Məsuldarlıq orta hesabla 25-30 sentner təşkil edir. Rayonda pambıq əkinlərinin artırılması və bu işə fermerlərin marağını artırmaq üçün geniş tədbirlər həyata keçirilir. 2017-ci ilin məhsulu üçün rayonda 1000 hektardan çox pambıq, 1500 hektar çuğundur əkilməsi nəzərdə tutulmuşdur. Bununla bərabər yaxın gələcəkdə rayonda baramaçılığın inkişaf etdirilməsi məqsədi ilə çəkil plantasiyalarının salınması nəzərdə tutulur.

Sarıqamış kəndi ərazisində iribuynuzlu mal-qara üçün nəzərdə tutulmuş heyvandarlıq kompleksində işlər davam etdirilmişdir. Hazırda kompleksdə saxlanılan iribuynuzlu cins mal-qaranın sayı 3000 başdan çoxdur. Burada gün ərzində 32-35 ton süd istehsal olunur. Rayona investisiya qoyuluşuna cəlb olunmuş "Ulduz 2011" MMC-yə Ceyrançöl və Bozdağ massivlərindən 2010 hektar torpaq sahəsi ayrılmışdır.

Torpaq sahəsinin 1100 hektarında taxıl, 500 hektarında isə intensiv üsulla kartof əkilməsi nəzərdə tutulur. Burada 104 nəfər daimi işlə təmin olunacaqdır.

Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi tərəfindən inşa etdirilən "Aqroenerji" kompleksinin tikintisində işlər sürətləndirilmişdir. Burada 9 mindən çox günəş paneli quraşdırılmışdır. Hazırda yaxın ərazisində yerləşən obyektləri enerji ilə təmin edir. Kompleksin inzibati binasının daxilində aparılan işlər başa çatmaq üzrədir.

2016-cı ilin məhsulu üçün 7920 hektar sahədə payızlıq taxıl səpini aparılmışdır.

Hesabat dövründə sahələrdən 24022 ton taxıl məhsulu yığılmışdır ki, orta məhsuldarlıq 29,5 sentner təşkil edir. Ondan 10641 tonu buğda 13381 tonu isə arpadır.

2016-cı il 01 oktyabr tarixinə rayonda 2186 ton kartof, 9395 ton tərəvəz, 4830 ton bostan bitkisi, 3469 ton günəbaxan, 31 ton paxlalılar, 1571 ton qarğıdalı, 6683 ton şəkər çuğunduru istehsal olunmuşdur. Bununla bərabər bağlardan 5488 ton meyvə, 5043 ton üzüm yığılmışdır. Hazırda yığım davam edir.

2016-cı ilin 01 oktyabr tarixinə iribuynuzlu mal-qaranın sayı 23888 baş olmuşdur. Bundan ana inək və camışların sayı 11944 baş təşkil edir. Qoyun və keçilərin sayı 168326 baş təşkil edir. Hesabat dövründə 3257 ton diri çəkidə ət, 15384 ton süd, 5163 min ədəd yumurta, 346 ton yun istehsal olunmuşdur.

Kənd təsərrüfatı məhsullarının istehsalında yüksək nəticənin əldə olunmasında əsas şərtlərdən biri əkin sahələrinin suvarma suyu ilə təminatı məsələsidir. Rayonda 41 subartezian quyusu qazılıb istifadəyə nəzərdə tutulmuşdur ki, onlardan da 30-u istifadəyə verilmişdir. Daha 11 ədəd subartezian quyusunun qazılması nəzərdə tutulmuşdur.

1617 abonent dayağı, 1779 sayğac quraşdırılmışdır. Bu istiqamətdə işlər davam etdirilir. Əhalinin təbii qazla təminatının yaxşılaşdırılması istiqamətində də müəyyən işlər görülmüşdür. Hazırda rayonun 35 yaşayış məntəqəsindən 30-da mavi yanacaqdan istifadə olunur. Sentyabr ayında rayonun Qırmızı Samux qəsəbəsinə təbii qaz verilmişdir.

2016-cı ilin 9 ayı ərzində 635 yeni əhali abonenti qeydiyyata alınmışdır.

Samux rayonunda 17 avtomat telefon stansiyası fəaliyyət göstərir ki, bu da rayonun bütün yaşayış məntəqələrində telekomunikasiya xidmətlərinin göstərilməsinə imkan verir. Rayonun avtomat telefon stansiyalarının ümumi montaj tutumu 8320 nömrə təşkil edir. 2016-cı ilin 9 ayında telefon aparatlarının sayı 8288 ədəd təşkil etmişdir. Bundan əhali sektoru üzrə telefon sayı 7858 ədəd, müəssisə sektoru üzrə isə 430 ədəd təşkil edir.

Samux rayonunda əhaliyə poçt rabitəsi xidməti "Azərpoçt" MMC-nin samux filialı tərəfindən həyata keçirilir. Hazırda əhaliyə 75-dən çox poçt xidmətləri göstərilir. 2016-cı ilin 9 ayında Alıuşağı, Sarıqamış poçt şöbələri kompüterlə təmin edilmişdir. Alabaşlı qəsəbə, Seyidlər və Füzuli kəndində yeni poçt binalarının tikintisi nəzərdə tutulur.

2016-cı ilin 9 ay ərzində Samux Rayon İcra Hakimiyyəti başçısı aparatına ümumilikdə 480 ərizə, təklif və şikayət daxil olmuşdur. Müraciətlərdən 239-u yerli sakinlərdən, 241-i isə respublikanın yuxarı təşkilatlarından olmuşdur. Daxil olmuş ərizələrdə qaldırılan məsələlər yerində araşdırılmış, vətəndaşların haqlı tələbləri vaxtında həll edilmişdir.

2016-cı ilin doqquz ayının yekunları göstərir ki, biz ilin əvvəlində qarşıya qoyulan vəzifələrin öhdəsindən gələcəyik.

Qarşımızda duran ən vacib məsələlərdən biri, ölkə başçısının ölkəmizdə kənd təsərrüfatının inkişafına göstərdiyi diqqət və qayğıya layiqincə cavab vermək, bu imkandan maksimum yararlanaraq iqtsadiyyatının əsasını kənd təsərrüfatı məhsullarının istehsalı təşkil edən rayonumuzda vaxtilə xarakterik olmuş pambıqçılığın, taxılçılığın, baramaçılığın inkişaf etdirilməsinə nail olmaqdır. Hazırda bu istiqamətdə hazırlıq işlərinə başlanılmışdır. Əkin sahələri müəyyənləşdirilir.

Qarşımızda duran ən vacib məsələlərdən biri də rayon iqtisadiyyatının daha da genişləndirilməsi və əhalinin məşğulluğunun tam təmin olunması üçün yeni istehsal və emal müəssisələrinin yaradılmasını təmin etməkdən ibarətdir ki, bu istiqamətdə müvafiq işlər aparılır.

Çıxışının sonunda rayon rəhbəri, rayona göstərilən diqqət və qayğıya görə ölkə başçısına qədirbilən samuxlular adından minnətdarlığını bildirərək , tam əminliklə bildirdi ki, Samux Rayon İcra Hakimiyyəti bundan sonra da bütün gücünü səfərbər edərək qarşısında qoyulmuş vəzifələrin icrasını layiqincə yerinə yetirəcəkdir.

Məruzə ətrafında Samux Rayon Qaz İstismar İdarəsinin rəisi Vüqar Ələkbərov, Rayon Kənd Təsərrüfatı İdarəsinin rəisi Rahil Həsənov, Rayon Təhsil Şöbəsinin müdiri Gülağa Hüseynov çıxış edərək, görülmüş işlərdən və qarşıda duran ümdə vəzifələrdən ətraflı məlumat verdilər.

Tədbirin sonunda qərar layihəsi oxundu.

**Zabit XƏLİLOV,**
**"Respublika".**